Xüsusi buraxılış

"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır".
Heydər Əliyev

Heydər Əliyev – xalq birliyi əbədidir!

AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 18-19 (989-990) | 20-25 Oktyabr 2016-cı il | Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı

Prezident İlham Əliyev oktyabr ayının 19-da Ağstafa rayonuna səfər etmişdi

Prezident İlham Əliyev Ağstafada ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmişdir

Oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağstafa rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev Prezident İlham Əliyevə ətrafda aparılan abadlıq-quruculuq və yenidənqurma işləri barədə məlumat verdi. Bildirildi ki, ərazidə geniş yaşıllaşdırma işləri aparılıb, müasir işıqlandırma sistemi qurulub.

Ağstafada əsaslı şəkildə yenidən qurulan Heydər Əliyev Mərkəzində yaradılan şəraitlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Ağstafaya səfəri çərçivəsində əsaslı şəkildə yenidən qurulan Heydər Əliyev Mərkəzində yaradılan şəraitlə tanış olub.

(davamı səh. 2-də)

Bu il "Ağstafa" qəzetinin 25 yaşı tamam olur

Ağstafada əsaslı şəkildə yenidən qurulan Heydər Əliyev Mərkəzində yaradılan şəraitlə tanışlıq

(əvvəli səh. 1-də)

Əsaslı yenidənqurma işləri çərçivəsində mərkəzin dam örtüyü, havalandırma sistemi təzələnib. Mərkəzin 320 tamaşaçı yerlik açıq konsert meydanı yaradılıb. Dördmərtəbəli binanın foyesində ulu öndər Heydər Əliyevin barelyefi qoyulub. Mərkəzdə Ümummilli Liderin həyat və fəaliyyətini əks etdirən fotolardan ibarət ekspozisiya zalları yaradılıb. Zallarda dahi şəxsiyyətlə bağlı birbirindən maraqlı fotolar, sənədlər və digər eksponatlar nümayiş olunur. Burada Ulu Öndərin uşaqlıq, gənclik, tələbəlik illərində, həmçinin müxtəlif vəzifələrdə çalışdığı dövr və Ağstafaya səfərləri, rayon zəhmətkeşləri ilə görüşləri zamanı çəkilən fotoları maraqla qarşılanır.

Aparılan əsaslı təmir işləri nəticəsində mərkəzin funksionallığı daha da artırılıb. Mərkəzdə "Saloğlu" mebel və "Akkord" tikiş fabriklərinin sərgi salonları açılıb.

Burada yaradılan 400 yerlik akt zalı müasir akustika avadanlığı ilə təchiz olunub. Akt zalında rayon əhəmiyyətli mühüm tədbirlərin keçirilməsi üçün hərtərəfli şərait yaradılıb. Mərkəzdə nikah mərasimləri üçün otaq, memarlıq, incəsənət, reklam, xalçaçılıq studiyaları fəaliyyət göstərəcək. Bundan başqa, burada distant təhsil, ekoturizm, uşaq yaradıcılığı və informasiya mərkəzləri, rəqs studiyası, rəsm qalereyası və dil kursları da yaradılıb. Kiçik kino zalı, 30 və 70 yerlik konfrans zalları da rayon sakinlərinin ixtiyarına veriləcək. Mərkəzin bütün inzibati otaqları zəruri avadanlıqla təchiz olunub.

Prezident İlham Əliyev Ağstafada "Modern" mebel fabrikinin açılışında iştirak edib

Oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağstafa rayonuna səfəri çərçivəsində "Saloğlu" mebel istehsalı müəssisəsinin nəzdində yaradılmış "Modern" mebel fabrikinin açılışında iştirak edib.

Azərbaycanda qeyri-neft sektorunun inkişafına xüsusi diqqət göstərilir, yeni-yeni sənaye və emal müəssisələri yaradılır. Görülən bu işlər nəticəsində qeyri-neft sektorunun çəkisi və rolu son illərdə daha da artıb, yeni inkişaf mərhələsinə qədəm qoymuş ölkə sənayesində ənənəvi sahələr genişlənməklə yanaşı, digər müasir sənaye sahələri yaradılıb. Ağstafa rayonunda "Saloğlu" mebel istehsalı müəssisəsinin nəzdində "Modern" mebel fabrikinin yaradılması bunu bir daha təsdiqləyir.

Dövlətimizin başçısının müəyyən etdiyi sənayeləşmə siyasətinə uyğun olaraq həyata keçirilən tədbirlər nəticəsində son dövrlərdə yeni istehsal sahələrinin yaradılması ümumilikdə Azərbaycanın ixrac potensialına da müsbət təsir edir. Bu cür müəssisələrin istifadəyə verilməsi, onların ən müasir avadanlıqla təchiz edilməsi ölkəmizdə sənaye sahəsinin inkişafına əhəmiyyətli dərəcədə töhfə verir, daxili bazarın tələbatını ödəmək baxımından müstəsna əhəmiyyət daşıyır. Qeyri-neft sənayesinin şaxələndirilməsi, mövcud təbii və iqtisadi resursların dövriyyəyə cəlb edilməsi istiqamətində görülən işlər həm də yüzlərlə yeni iş yerinin açılmasına geniş imkan yaradır. Belə istehsal sahələrinin yaradılması həm də onu göstərir ki, dünyada hökm sürən iqtisadi böhrana baxmayaraq ölkəmizin sənaye potensialının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər uğurla davam edir.

Dövlətimizin başçısı əvvəlcə "Saloğlu" mebel fabrikinin məhsullarına baxdı, müəssisənin yeni layihələri ilə tanış oldu.

Daha sonra Prezident İlham Əliyev "Modern" mebel fabrikini işə saldı.

Şirkətin təsisçisi Tacəddin Mustafayev Azərbaycan Prezidentinə yeni fabrik barədə məlumat verdi. Bildirildi ki, fabrikin inşasına 2015-ci ilin dekabrında başlanılıb. İki hektar ərazisi olan fabrik 7 istehsal sahəsindən ibarətdir.

(davamı səh. 3-də)

Prezident İlham Əliyev Ağstafada "Modern" mebel fabrikinin açılışında iştirak edib

(əvvəli səh.2 -də)

Ağac yonqarı lövhələrinin və laminatların kəsilməsi və quraşdırılması, mebellər üçün metal hissələrin və mexanizmlərin yığılması, yumşaq mebellər üçün taxta-karkasların, dəri və parça üzlüklərin, döşəklərin, yataq və qonaq otaqları üçün mebel dəstlərinin istehsalı sahələri ən müasir səviyyədə qurulub. Fabrik Almaniya və İtaliyanın aparıcı şirkətlərinin avadanlıqları ilə təchiz olunub. Burada 200 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulub. Müəssisə yüksək keyfiyyətli məhsul istehsal etmək üçün geniş texniki imkanlara malikdir. Bu cür müəssisənin istifadəyə verilməsi yalnız Ağstafa rayonunun deyil, ümumilikdə, regionun iqtisadi inkişafına mühüm töhfə verəcək.

Sonra Prezident İlham Əliyevə "Saloğlu" mebel istehsalı müəssisəsinin nəzdində yaradılacaq "Venzana" mebel fabrikinin layihəsi barədə məlumat verildi. Bildirildi ki, bu fabrik 4 istehsal sahəsindən ibarət olacaq. İstehsal ediləcək məhsulların daxili bazarla yanaşı, Almaniyaya, Belçikaya, Fransaya, Hollandiyaya, İtaliyaya, İspaniyaya və İsveçə ixracı nəzərdə tutulur. İşçilərin istirahəti, onların məişət şəraitinin yaxşılaşdırılması üçün burada körpələr evi-uşaq bağçasının, əyləncə və ticarət mərkəzlərinin inşası planlaşdırılır. Bundan başqa, ərazidə mebel mərkəzi ilə yanaşı, "Yaşıl Bazar" satış kompleksi və mehmanxana da tikiləcək. Layihə üzrə inşaat işlərinin 2017-ci ilin dekabrında başa çatdırılması nəzərdə tutulub. Layihənin icrası nəticəsində 2500 nəfər daimi işlə təmin ediləcək.

Dövlətimizin başçısı yeni fabrikin təməlini qoydu.

Sonda xatirə şəkli çəkdirildi.

Ağstafada Musiqi Mərkəzi istifadəyə verildi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Ağstafa şəhərində Musiqi Mərkəzinin açılışında iştirak edib.

Prezident İlham Əliyev mərkəzdə yaradılan şəraitlə tanış oldu.

Dövlətimizin başçısına məlumat verildi ki, hazırda Ağstafa şəhər Musiqi Mərkəzində 90 müəllim çalışır və 269 şagird təhsil alır. Burada təhsil müddəti 5 və ya 7 ildir. Təhsil ocağında 400 yerlik müasir konsert zalı yaradılıb. Mərkəz yeni musiqi alətləri və inventarla təchiz edilib. Ümumi tikinti sahəsi 2400 kvadratmetrə yaxın olan bina mərkəzi isitmə sistemi ilə təchiz olunub, müasir havalandırma qurğuları quraşdırılıb.

Prezident İlham Əliyev şagirdlərin ifasını dinlədi.

Sonda xatirə şəkli çəkdirildi.

Ağstafa Rayon Mədəniyyət Mərkəzi müasir tələblər səviyyəsində yenidən qurulub

Oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağstafa Rayon Mədəniyyət Mərkəzində əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub.

Bu gün digər sahələr kimi mədəniyyət sahəsi də dövlətimizin yüksək qayğısı ilə əhatə olunub. Azərbaycanda mədəniyyət sahəsinə dövlət səviyyəsində gündən-günə güclənən qayğı bu gün özünü daha aydın büruzə verir. Bu sahədə çalışanların iş şəraitini günün tələbləri səviyyəsinə çatdırmaq üçün məqsədyönlü tədbirlər uğurla davam etdirilir. Ağstafa Rayon Mədəniyyət Mərkəzinin əsaslı şəkildə yenidən qurulması bu qəbildən olan tədbirlərdəndir. Bu cür layihələrin paytaxtla yanaşı, regionlarda da geniş vüsət alması, ümumilikdə, respublikamızda mədəniyyət sahəsinin inkişafına töhfə verir.

Dövlətimizin başçısı Mədəniyyət Mərkəzinin binasında yaradılan şəraitlə tanış oldu.

Azərbaycan Prezidentinə məlumat verildi ki, Ağstafa Rayon Mədəniyyət Mərkəzinin yerləşdiyi bina 1950-ci ildə inşa edilib. Ötən müddətdə binada əsaslı təmir işləri aparılmadığından tikili köhnəlib və qəzalı vəziyyətə düşüb. Prezident İlham Əliyevin 2014-cü il 30 iyun tarixli Sərəncamı ilə başlanan əsaslı təmir işləri nəticəsində bina tamamilə yenilənib. Binada yenidənqurma və təmir işləri 2015-ci ilin dekabrında başa çatıb. Mərkəzin əsas tamaşa salonu tamamilə yenilənib və genişləndirilərək 220 yerlik olub. Salonda müasir oturacaqlar quraşdırılıb və yüksək standartlara uyğun səhnə yaradılıb. Havalandırma sistemi ilə təchiz olunan binanın ümumi sahəsi 680 kvadratmetrdir. Burada kafe, inzibati, yardımçı otaqlar və qrim otaqları, həmçinin kitabxana fəaliyyət göstərir. Mərkəzin yerləşdiyi Eyvaz Qələmçəli və Nüsrət Kəsəmənli küçələrində əsaslı təmir işləri aparılıb, müasir işıqlandırma sistemi yaradılıb, səkilərə dekorativ daş döşənib, asfalt örtüyü yenilənib.

Ağstafa taxıl və un məmulatları istehsalı kombinatının taxıl dəyirmanının təməlqoyma mərasimi olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da "Ağstafa Aqroservis" MMC-nin nəzdində yaradılacaq taxıl və un məmulatları istehsalı kombinatının taxıl dəyirmanının təməlqoyma mərasimində iştirak edib.

"Ağstafa Aqroservis" MMC-nin müşahidə şurasının sədri Rəsul Orucov dövlətimizin başçısına məlumat verdi ki, taxıl və un məmulatları istehsalı kombinatının inşasına 2015-ci ilin martında başlanılıb, tikinti işlərinin başa çatdırılması 2017-ci ilin may ayına nəzərdə tutulub. Kombinat 3 zavoddan ibarət olacaq. Bunlar "Toxumluq taxıl emalı", "Taxıl emalı və un istehsalı" və "Çörək və yarımfabrikatlar istehsalı" zavodlarıdır.

Layihə çərçivəsində saatda 1 ton istehsal gücünə malik çörək zavodu, 30 min tonluq taxıl, 2 min tonluq un rezervuarları, mədəniyyət mərkəzi, 300 yerlik konfrans zalı, hazır məhsul anbarı, ikimərtəbəli "fast food" iaşə obyekti, 140 yerlik yeraltı avtomobil dayanacağı, yem anbarı yaradılacaq. Ümumi sahəsi 2 min kvadratmetr olacaq "fast food" iaşə obyektində kompleksin istehsal etdiyi çörək, un və qənnadı məhsulları təqdim ediləcək. Kompleksin yaradılmasında Avropa, əsasən də Almaniya və İsveçrə texnologiyalarından istifadə olunduğu üçün kadr hazırlığı məqsədilə tədris kurslarının təşkil edilməsi nəzərdə tutulub.

"Ağstafa Aqroservis" MMC-nin ikinci layihəsi olan taxıl və un məmulatları kombinatının tərkibinə 6 min hektar torpaq sahəsini əhatə edən taxılçılıq təsərrüfatı da daxildir.

Təsərrüfatda 2016-2017-ci il üçün taxıl səpini işlərinə start verildi. Rayonun Ceyrançöl adlanan ərazisində "Ağstafa Aqroservis" MMC-nin istifadəsində olan 2729 hektar sahədə regiona uyğunlaşdırılmış sortun səpin işləri tədbir zamanı canlı yayımlandı.

Burada hektardan məhsuldarlığın 50-60 sentner təşkil edəcəyi gözlənilir. Taxıl təsərrüfatında Almaniyanın "DSV-saaten" Toxumçuluq İnstitutuna məxsus Akteur buğda sortunun əkilməsi nəzərdə tutulub.

Dövlətimizin başçısına yeni yaradılacaq taxıl dəyirmanı barədə məlumat verildi.

Dəyirman müasir iqtisadiyyatın tələbinə uyğun olaraq yeni texnologiyalarla təchiz ediləcək. Bu texnologiyaların tətbiqi dəyirmanda keyfiyyətli məhsul əldə etməyə imkan verəcək. Dəyirmanın emal gücü saatda 5 tondur. Qabaqcıl texnologiyaların tətbiqi buğdadan maksimum un əldə etməyə şərait yaradacaq. Beləliklə, həm yüksək keyfiyyətli un məhsulları əldə ediləcək, həm də mövcud tullantılardan səmərəli istifadə olunacaq. Bu dəyirmanın ən böyük əhəmiyyəti ondan ibarətdir ki, emala təqdim edilmiş taxıl yuyulmayacaq. Onun nəmləndirilməsi xüsusi texnologiya ilə həyata keçiriləcək ki, bu, həm unun keyfiyyətli olmasına şərait yaradacaq, həm də vaxt və məhsul itkisinin qarşısını alacaq. Emal zamanı yaranan kəpək və digər qırıntılardan yem istehsal ediləcək.

Prezident İlham Əliyev yeni dəyirmanın təməlini qoydu.

Dövlətimizin başçısı burada hazır məhsul anbarına da baxdı.

Ümumi sahəsi 5048 kvadratmetr olan anbarda satış üçün saxlanılan bir neçə çeşiddə un, qaba yem və hazır toxumlar barədə Prezident İlham Əliyevə məlumat verildi.

Prezident İlham Əliyevə yerli undan hazırlanan qənnadı məhsulları təqdim olundu.

Dövlətimizin başçısına burada quraşdırılması nəzərdə tutulan toxum istehsalı xətti barədə də məlumat verildi. Qeyd edildi ki, layihə üzrə müəssisənin tərkibində saatda 25 ton emal gücü olan Almaniyanın "Petkus" şirkətinə məxsus toxum istehsalı xətti qurulacaq.

Prezident İlham Əliyev Ağstafada "Karvan-L EKO" sənaye parkında inşası başa çatdırılan müəssisələrin və istixana kompleksinin açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Ağstafada "Karvan-L EKO" sənaye parkında inşası başa çatdırılan müəssisələrin və istixana kompleksinin açılışında iştirak edib.

Sonra dövlətimizin başçısı müəssisələrin və istixana kompleksinin açılışını etdi.

Prezident İlham Əliyev yeni müəssisələrlə tanış oldu. Bu müəssisələrində hazırlanan məhsullar təqdim olundu.

Müəssisə ilə tanışlıqdan sonra Prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri və kompleksin işçiləri ilə görüşdü.

Dövlətimizin başçısı Ağstafada yeni sənaye kompleksinin işə düşməsini əlamətdar hadisə kimi dəyərləndirdi və bu müəssisənin yeni iş yerlərinin yaradılması, həmçinin daxili bazarın istehlak mallarına olan tələbatının ödənilməsi və ixracyönümlü məhsulların artırılması baxımından mühüm rolundan danışdı. Belə sənaye müəssisəsinin regionda açılması təşəbbüsünü yüksək qiymətləndirdi. Dövlətimizin başçısı ölkədə sahibkarlar üçün yaradılan şəraitin qeyri-neft sektorunun inkişafına təsirindən, rəqabətqabiliyyətli məhsulların istehsalının artmasındakı rolundan bəhs etdi. Prezident İlham Əliyev Ağstafada sosial problemlərin, o cümlədən əhalinin su, qaz, elektrik enerjisi ilə təchizatı məsələlərinin həllinə toxundu, kənd yollarının yenidən qurulmasının uğurla davam etdirildiyini vurğuladı. İndi əsas diqqətin sənaye və kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına yönəldiyini bildirən dövlətimizin başçısı bu sahədə regionlarda görülən işlərin mühüm önəm daşıdığını dedi.

"Karvan L" şirkətinin rəhbəri Əbülfəz Qafarov, müəssisənin işçiləri Xanlar Hacıyev, Yaylaq Abdullayeva, rayon sakini İbrahim Əliyev müəssisənin fəaliyyətinə verdiyi yüksək qiymətə, bütövlükdə Ağstafanın inkişafına göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər.

Sonda xatirə şəkli çəkdirildi.

Şirkətin rəhbəri Əbülfəz Qafarov Prezident İlham Əliyevə məlumat verdi ki, sənaye parkının istehsal sahəsi 11 müəssisə və 1 istixana kompleksindən ibarətdir. Hazırda 9 müəssisənin və istixana kompleksinin inşası başa çatdırılıb.

Prezident İlham Əliyevə "Karvan L" elmi istehsalat birliyinin müəssisələrdə müxtəlif növ istehlak malları və inşaat materialları istehsal ediləcək. Parkda yaradılan orqanik kənd təsərrüfatı məhsulları yetişdirilən istixana kompleksi də müasir səviyyədə qurulub. Sənaye parkının ərazisində keramika dam örtükləri və şüşə qab istehsalı

Sürətli inkişaf davam edir

Bu günlər Rayon icra hakimiyyəti başçısı yanında keçirilən növbəti şura iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə oktyabrın 7-də Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasından irəli gələn məsələlərin Ağstafa rayonunda həyata keçirilməsinə dair məsələ müzakirə olundu.

Heydər Əliyev Mərkəzində keçirilən şura iclasında Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev geniş nitq söylədi və ötən dövrdə rayonda görülmüş işlər, qarşıda duran vəzifələr barədə məruzə etdi.

M.Quliyev qeyd etdi ki, 2016-cı ildə Azərbaycanda çox ciddi iqtisadi islahatlar aparılmış və bu islahatlar artıq öz nəticələrini verməkdədir. Aparılmış islahatlar dünyanın aparıcı iqtisadi mərkəzləri tərəfindən yüksək qiymətləndirilir. Dünyanın bir nömrəli iqtisadi forumu-Davos Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətliliyinə görə dünyada 37-ci yerə layiq görmüşdür.

Cənab Prezident öz çıxışında bölgələrdə sənaye zonalarının yaradılması prosesinin getdiyini, artıq Neftçalada və Masallıda sənaye zonasının yaradılması üçün iş aparıldığını və digər rayonlarda da bu istiqamətdə işlərin görüldüyünü vurğuladı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yerlərdə sənaye məhəllələrinin yaradılması və iş adamları tərəfindən

regionlarda biznes layihələrinin icrası və yeni iş yerlərinin açılması barədə tapşırığına əsasən Ağstafa rayonunda əməli işlər görülür. Ağstafa rayonunda yeni biznes layihələrinin həyata keçirilməsi, istehsal və emal müəssisələrinin yaradılması, eləcə də aqrar sahədə tədarük müəssisəsinin, soyuducu anbar komplekslərinin, istixanaların tikintisi məqsədi ilə rayondan kənarda yaşayan Ağstafalı iş adamları ilə iş aparılır. Rayonda "Karvan-L EKO" sənaye parkının tikintisi işlərinə başlanılmış və qısa müddətdə istehsal müəssisəsində birinci mərhələ tikinti işləri başa çatdırılmışdır. Sənaye parkında müasir texnologiyalara əsaslanan üzvi kimya maddələrinin istehsalı, meyvə və tərəvəzin emalı, dam örtükləri və şüşə emalı, plastik tullantıların təkrar emalı müəssisələri, müasir texnoloji idarəetmə prinsiplərinə əsaslanan 5-ci nəsil istixana kompleksi, kənd təsərrüfatı məhsullarının saxlanılması və qablaşdırılması, meyvə bağlarının salınması, kərpic, kirəmit və yerli materiallardan mozaik üzlük daşların istehsalı nəzərdə tutulur.

Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində Almaniyanın qabaqcıl şirkətlərinin iştirak etdiyi "Ağstafa Aqroservis" MMC-nin 2-ci mərhələsini təşkil edən Ağstafa taxıl və un məmulatları kombinatının tikintisi işləri aparılır. Layihəyə 6 min hektar torpaq sahəsini əhatə edən taxılçılıq təsərrüfatı, 30 min ton saxlama gücü olan taxıl anbarı, ümumi sahəsi 4.0 min kv.metr olan 3 ədəd toxum emalı anbarı, istehsal gücü saatda 5 ton olan taxıl emalı və un zavodu, istehsal gücü saatda 5 ton olan çörək və çörək məmulatları zavodu, marketin, satış və eyni zamanda 200 nəfərə xidmət göstərən "Fas-food" iaşə xidməti daxildir.

Rayonumuzda 19 oktyabr 2016-cı il tarixində Heydər Əliyev adına Muzey Mərkəzdə, Ağstafa şəhər 350 şagird yerlik Musiqi və İncəsənət Mərkəzində, Rayon Mədəniyyət Mərkəzində, Saloğlu mebel fabrikində, Ağstafa taxıl və un məmulatları kombinatında, "Karvan-L EKO" sənaye parkında, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə həmin obyektlərin təntənəli açılışı və təməlqoyma tədbirləri sözün əsl mənasında tarixi hadisəyə çevrildi.

2016-cı ilin 9 ayı ərzində Ağstafa rayonu üzrə ümumi məhsul buraxılışının həcmi 16.3 faiz artmışdır. Keçən ilin eyni dövrü ilə müqayisədə sənaye məhsulunun ümumi həcmi 9.9 faiz, kənd təsərrüfatı məhsullarının həcmi 4.3 faiz artmış, tikintidə 55.3 faiz, nəqliyyat xidmətində 4.1 faiz, rabitə xidmətində 6.3 faiz, ticarət sahəsində 16.6 faiz artım olmuşdur.

2016-cı ilin yanvar-sentyabr ayları ərzində yerli gəlirlər üzrə proqnoz 108.5 faiz yerinə yetirilmişdir. 2016-cı ilin doqquz ayı ərzində 386 nəfərə əmək pensiyası təyin edilmişdir, bir nəfərə düşən orta aylıq pensiyanın məbləği rayon üzrə 171.59 manat təşkil etmişdir. Bu ilin yanvar-sentyabr ayları ərzində pensiya və müavinətlərin vaxtında ödənilməsi tam təmin edilmişdir.

Sosial məişət xidməti sektorunda 243 nəfər tənha və ahıl vətəndaşlar xidmət uçotuna götürülmüş, rayon üzrə 4069 nəfərə, 926 ailəyə ünvanlı sosial yardım verilmiş, hər ailəyə ödənilən yardımın məbləği 156.21 manat, adambaşına 35.54 manat təşkil etmişdir.

"Azərpoçt" MMC-nin Ağstafa Poçt filialı 2016-cı ilin 9 ayı ərzində plan proqnoz tapşırıqlarını 116.0 faiz yerinə yetirmişdir.

Ötən 9 ay ərzində 1905 nəfər işaxtaran kimi rayon Məşğulluq Mərkəzində qeydiyyata alınmış və 457 nəfər işlə təmin edilmişdir. Ötən dövr ərzində 43 nəfərə işsiz statusu verilmiş və işsizlik müavinəti təyin edilmişdir. Hazırda Məşğulluq Mərkəzində 176 vakant iş yerləri mövcuddur.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası Ağstafa rayonunda tədbirlər planına uyğun həyata keçirilmişdir. Ağstafa rayonu üzrə 2016-cı ilin yanvar-sentyabr ayları ərzində həyata keçirilmiş bir sıra tədbirlər nəticəsində rayonda 1368 nəfər işlə təmin olunmuşdur. Rayon üzrə işlə təmin olunanların (938 nəfər) 68.6 faizi daimi işlərdə işləyənlərdir.

Ağstafa rayonun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Cari ilin 9 ayı ərzində rayon üzrə kənd təsərrüfatı məhsullarının həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 4.3 faiz artmışdır. Bu dövlət tərəfindən fermerlərə verilən dəstək, subsidiya, texnika təminatı nəticəsində əldə olunmuşdur.

Ağstafa Suvarma Sistemləri İdarəsi, Ağstafa rayon Baytarlıq İdarəsi, Meşə Mühafizəsi və Bərpası Müəssisəsi tərəfindən qarşıya qoyulan vəzifələr uğurla həyata keçirilmiş, həmin müəssisələrin kollektivləri rayonda kənd təsərrüfatının inkişaf etdirilməsində öz layiqli töhvələrini vermişlər.

M.Quliyev qeyd etmişdir ki, ölkəmizin sürətli iqtisadi tərəqqisinin nəticəsi olaraq ümumtəhsil müəssisələrində əlverişli təlim-tərbiyə şəraitinin yaradılmasına xidmət edən maddi-texniki bazanın yenidən qurulması, müasir tədris avadanlığı və informasiya kommunikasiya texnologiyaları ilə təminat sahəsində genişmiqyaslı işlərin görülməsi davam etməkdədir.

Son 5 ildə Ağstafa rayonunda 7 tam orta məktəb binası tikilmiş, inventar və avadanlıqlarla tam təmin olunmuşdur. Hazırda sərhəddə yerləşən Köhnəqışlaq kənd orta məktəbinin tikintisi davam etdirilir.

Hesabat dövründə Körpələr evi-uşaq bağçalarının maddi texniki bazasının möhkəmləndirilməsi istiqamətində iş aparılmışdır. Aşağı Kəsəmən kənd körpələr evi-uşaq bağçasının tikintisi başa çatdırılmış, Dağ Kəsəmən kənd 2 saylı körpələr evi-uşaq bağçasında təmir işləri aparılmış və inventar avadanlıqlarla təchiz olunmuşdur. Hazırda şəhər 5 saylı, Dağ Kəsəmən kənd 1 saylı körpələr evi-uşaq bağçalarının yeni binasının tikintisi davam etdirilir.

Əhalinin sağlamlığının qorunmasına dair dövlət siyasətinin həyata keçirilməsinin təmin edilməsi və movcud olan tibb məntəqələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədi ilə Ağstafa Rayon Mərkəzi Xəstəxanası tərəfindən bir sıra tədbirlər həyata keçirilmişdir. 2016-cı ilin 9 ayı ərzində 817 nəfər ilkin xəstə dispanser qeydiyyatına götürülmüşdür. Hazırda 7622 nəfər dispanser qeydiyyatında saxlanılır.

Ağstafa rayon Mədəniyyət və Turizm şöbəsində 2016-cı ilin arxada qalan 9 ayı ərzində 50-dən çox mədəni-kütləvi tədbirlər təşkil olunmuş, tədbirlərin kəmiyyət və keyfiyyətcə daha da yaxşılaşdırılması istiqamətində səylər artırılmışdır.

Ağstafa şəhərinin abadlaşdırılması küçə və meydanların yenidən qurulması çoxmənzilli yaşayış binalarının təmiri işləri ön plana şəkilmişdir. Bu məqsədlə nəzərdə tutulan işlərin keyfiyyətlə həyata keçirilməsində Memarlıq və tikinti şöbəsinin üzərinə böyük vəzifələr düşür. Dövlət mənzili fondunun qorunub saxlanılması, mənzillərin, çoxmənzilli yaşayış binalarının istismarının uzun müddətli olmasını təmin etmək məqsədilə təmir işləri vaxtında aparılmalı, binaların yükdaşıyan konstruksiyalarının zədələnməsinə yol verilməməlidir.

Rayon mərkəzinin abadlaşdırılması ilə yanaşı rayonun qəsəbə və kəndlərində də abadlıq, tikinti-quruculuq işləri genişləndirilməlidir. Bu sahədə yerli icra nümayəndəlikləri ilə bələdiyyə orqanlarının üzərinə böyük vəzifələr düşür.

Əhalinin təbii qaz yanacağı ilə təmin edilməsində müəyyən işlər görülsə də problemlər də mövcuddur. Ağstafa şəhərində, kənd və qəsəbələrdə son 20 ildə salınmış məhəllələrin qazlaşdırılmasına başlanılmamışdır. Hesabat dövründə Muğanlı, Qarayazı, Sadıqlı, Ağgöl və Böyük Kəsik yaşayış məntəqələrinin qazlaşdırılması işi davam etdirilir.

Əhalinin elektrik enerjisi ilə təminatında hesabat dövründə bir sıra işlər görülmüş, sıradan çıxmış transformatorlar bərpa edilmiş 10, 6 və 04 kv elektrik xətlərində cari təmir işləri aparılmış, çürük dayaqlar yenisi ilə əvəz edilmişdir.

Yol infrastrukturunun yaxşılaşdırılması sahəsində müəyyən işlər görülsə də problemlər mövcuddur. Həmin problemlərin aradan qaldırılması üçün qəti tədbirlər görülməlidir.

2016-cı ilin ötən dövrü ərzində rabitə sisteminin yaxşılaşdırılması sahəsində bir sıra addımlar atılmış, internet istifadəçilərinin sayı artırılmış, 360 abonentə internet verilmiş və 151 abonentə telefon çəkilmişdir. Bu sahədə də bəzi nöqsanlar hələ də qalmaqdadır. Söz yox ki, həmin nöqsanların aradan qaldırılması üçün qəti tədbirlər görüləcəkdir.

Hesabat məruzəsi iclasda geniş müzakirə olundu və qərar qəbul edildi.

ELAN

Azərbaycan Respublikası Daxili İşlər Naziri General-polkovnik cənab Ramil Usubovun bu il oktyabr ayının 29-da Gəncə şəhərində bölgə üzrə vətəndaşların qəbulunu keçirməsi nəzərdə tutulmuşdur.

Vətəndaşlar Daxili İşlər Orqanlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı Ağstafa rayon polis şöbəsinə müraciət etməklə qəbula yazıla bilərlər.

Əlaqə tel: 055 228 74 88, 022-5-25-52

Ağstafa Dəmir Yolu Xətt Polis Bölməsinin yeni rəisi

Gündüz Eldəniz oğlu Yusubov 14 sentyabr 2016-cı il tarixdə Ağstafa Dəmir Yolu Xətt Polis bölməsinin rəisi təyin olunmuşdu.

G.Yusubov 1983-cü ildə anadan olmuş, 2000-ci ildə Gəncə şəhərində M.Paşayev adına orta məktəbi bitirdikdən sonra hərbi xidmətə çağrılmışdı. O, Sərhəd Qoşunlarında hərbi xidməti borcunu yerinə yetirdikdən sonra Gəncə şəhər Polis idarəsində polis nəfəri kimi əmək fəaliyyətinə başlamışdı. Bir müddət Post Patrul Xidmətində çalışan G.Yusubov 2006-cı ildə Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbul olmuş və 2011-ci ildə akademiyanı bitirdikdən sonra təyinatla Gəncə şəhər polis idarəsinə göndərilmiş, Kəpəz rayon polis şöbəsinə əməliyyat müvəkkili təyin olunmuşdu.

2013-cü ildə ictimai təhlükəsizliyin təmin olunmasında və cinayətkarlığa qarşı mübarizədə fərqləndiyinə görə Gündüz Yusubov polis baş leytenantı xüsusi rütbəsinə layiq görülmüşdü. Sonralar Gəncə stansiyasında polis şöbəsində "Əməliyyat müvəkkili "vəzifəsində işləyən G.Yusubovun əməyinə yenidən yüksək qiymət verilmiş və baş əməliyyat müvəkili vəzifəsinə irəli çəkilmiş, polis kapitanı rütbəsi verilmişdir.

Bu ilin sentyabr ayında G.Yusubovun xidməti vəzifəsini ləyaqətlə yerinə yetirməsi nəzərə alınmış və o, Ağstafa Dəmir Yolu Xətt Polis Bölməsinə rəis vəzifəsinə təyin edilmişdi.

Təbrik edirik!

Naliyyətlər arxayınlıq yaratmamalıdır

Rayonun iqtisadiyyatının əsas sahələrindən birini də heyvandarlıq təşkil edir. Bu gün böyük inam hissi ilə qeyd etmək olarki ölkəmizin bütün regionlarında olduğu kimi, rayonumuzun bütün kəndlərində də heyvandarlığın inkişaf etdirilmsi üçün olduqca əlverişli şərait mövcuddur. Son illər əkin sahələrinin genişləndirilməsini və həmin sahələrin suvarılmasını təmin etmək, bol yem tədarük etmək istiqamətində həyata keçirilən tədbirlər heyvandarlıq məhsulları istehsalının artırılmasına öz müsbət təsirini göstərmişdir.

Bu il oktyabr ayının birinə olan statistik məlumata əsaslanıb demək olar ki, hazırda rayonda 26318 baş iribuynuzlu mal-qara saxlanılır ki, onun 11816 başını inək və camışlar təşkil edir. Rayon statistika idarəsinə verilən məlumat göstərir ki, ötən 9 ayda rayonda mal-qaranın baş sayı 2015-ci ilin müvafiq dövrünə nisbətən 187 baş artmışdı. Bütün bunlar sevindirici faktlar olsa da bu artım qoyunçuluqda müşahidə edlməmiş, qoyun və keçilərin baş sayı 9 ayda keçən ilin müvafiq dövrünə nisbətən 2903 baş azalmışdır. Əlbəttə, belə vəziyyət kənd təsərrüfatı ilə məşğul olan müvafiq təşkilatların rəhərlərini ciddi narahat etməli, qoyunçuluqda mövcud olan xoşagəlməz vəziyyət araşdırılmalı, qoyun və keçilərin baş sayının artırılması üçün əməli tədbirlər görülməlidir.

Rayonda mal-qaranın baş sayının artması ət və süd istehsalının artmasına öz müsbət təsirini göstərmişdir.

Məlum məsələdi ki, rayonda ət istehsalı artarsa bazarlarda bu məhsulun qiymətinin aşağı düşməsinə öz təsirini göstərər. Söz yox ki, belə vəziyyət alıcılar tərəfindən rəğbətlə qarşılanar.

Bu ilin 9 ayında ət istehsalı 107 faiz yerinə yetirilmiş, keçən ilin müvafiq dövrü ilə müqayisədə 107 ton çox məhsul istehsal olunmuşdur.

Apardığımız təhlil göstərir ki, rayonda süd istehsalında da müsbət irəliləyişlər olmuş, bu ilin 9 ayında 13140 ton süd istehsal edilmişdi ki, buda əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 383 ton çoxdur.

Eyni vəziyyət yun və yumurta istehsalında da müşahidə edilmişdi. Yun istehsalının 9 aylıq göstəricisi 100 faiz, yumurta istehsalı isə 113,5 faiz olmuşdur.

Söz yox ki, əldə edilən nailiyyətlər kənd təsərrüfatı işçilərini arxayınlaşdırmamalı, əhalinin ərzaq məhsullarına olan tələbatında mühüm əhəmiyyət kəsb edən bu sahəyə diqqəti artırmalıdırlar.

K.İbrahimov,
Ağstafa rayon Statistika İdarəsinin rəisi.

Əməkdar müəllim

Onu təkcə mən yox, bütün Ağstafa ictimaiyyəti yaxşı tanıyır. Elə bir vəzifəsi də yoxdur. Sadəcə olaraq üzərində şərəfli bir adı daşıyır, müəllim adı. Özü kimi ömür-gün yoldaşı Fikrət Babakişizadə də sadə, təvazökar bir insandır. Ağstafada doğulub boya-başa çatsada məni kimi onun da soykökü çox uzaqlara-cənubi Azərbaycana gedib çıxır. Sovet imperiyası çoxları kimi, bizim də ailələrə ağır zərbələr vurmuş, qohum-əqrabalarımızı pərən-pərən salmışdı. Lakin bütün bunlara baxmayaraq biz həmişə həyatın ağır sınaqlarından üzü ağ çıxmış, öz gücümüzlə böyümüş, ali təhsil almış, ucalmışıq. Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra isə özümüzü daha dərindən tanımış, əsl həyatın nə olduğunu daha dərindən dərk etmiş, xoşbəxtliyin nə olduğunu bilmiş və əməyimiz həmişə yüksək qiymətləndirilmişdir.

Haqqında söhbət açacağım sadə peşə sahibi şəhərimizdəki 2 saylı tam orta məktəbin tarix müəllimi Sevda Fərhad qızı Əliyevadır.

Sevda müəllimə Qazax şəhərində dünyaya göz açsa da bugün işlədiyi 2 saylı tam orta məktəbdə təhsil almış və 1977-ci ildə həmin məktəbi başqalarından fərqli olaraq qızıl medalla bitirmişdi. O, elə həmin il Bakı Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuşdu. İnstitut illəri də Sevda müəllimə üçün yaddaqalan xatirələrlə zəngin olmuş, sadəcə olaraq tələbə kimi yox, həm də tələbə elmi cəmiyyətinin üzvü və başqa ictimai işlərdə fəal iştirak edən bir insan kimi tanınmışdır.

Çox keçmədi ki, Sevda Əliyeva institutu da müvəffəqiyyətlə başa vurdu və tarix müəllimi kimi həyata vəsiqə alıbrayonumuza qayıtdı. O, bir müddət Ağstafadakı dəmiryolu təşkilatlarının birində kadrlar şöbəsində çalışdı. Daha sonra 1988-ci ildə hazırda işlədiyi 2 saylı tam orta məktəbə ixtisası üzrə tarix müəllimi təyin olundu.

Gənc müəllim əmək fəaliyyətinə başladığı ilk gündən məktəbin pedaqoji kollektivi, şagirdlər arasında böyük nüfuz qazandı. Onun dərsdən sonra keçirdiyi məşğələlər tarix fənninə daha çox meyl göstərən şagirdlərin sayını gündən-günə artırdı. Dincəlməyə, ailəsi ilə daha dərindən məşğul olmağa belə macal tapmayan Sevda müəllimənin nüfuzu məktəbdə gündən-günə artdı. Onun bu məziyyətləri heç kimin diqqətindən yayınmırdı. Sevda müəllimənin bugün böyük fəxrlə adlarını çəkdiyi tarix müəllimləri Əziz Məmmədov, Abdulla Kərimov elə bir yığıncaq, toplantı olmurdu ki, orada Sevda müəllimənin peşakarlığından, uşaqlara qayğı ilə yanaşmasından, onun pedaqoji təcrübəsindən söhbət açmasınlar.

Sevda Əliyevanın peşəsinə olan məhəbbətibaşqa illərdə də özünü büruzə vermişdi O, şagirdlərin təlim-təribiyəsinə müsbət təsir edən digər tədbirlərin də məktəbdə təşkil edilməsi üçün əlindən gələni edirdi. Məktəbdə mövcud olan tarix-diyarşunaslıq muzeyinin mövcud vəziyyəti Sevda müəllimənin diqqətindən yayınmamış və o, bu vəziyyətlə barışmayaraq muzeyin yenidən qurulması üçün əlindən gələni etmişdi. Həmin muzeyə bugün respublikamızın, rayonumuzun tarixini əks etdirən yeni ekspanatların gətirilməsi üçün Sevda müəllimə əlindən gələni etmiş və bütün bunların nəticəsidir ki, şagirdlər həmin muzeyə tez-tez baş çəkir, bugünümüzə, keçmişimizə aid olan ekspanatlarla tanış olurlar. Bu vəziyyət təkcə məktəb kollektivinin deyil, həmin tədris müəssisəsinə gələn digər qonaqların da diqqət mərkəzindən kənarda qalmır. Bütün bunların nəticəsidir ki, 2000-ci ildə respublikada məktəblərarası muzeylərə baxış keçirilərkən 2 saylı tam orta məktəbin tarix muzeyi yarışın qalibi olmuş və həmin muzey "İlin ən yaxşı muzeyi" adlandırılmışdır.

Sevda müəllimə həm də prezident aparatında gənclər fondunun dəstəyi ilə hazırlanmış "Könlüm keçir Qarabağdan" layihəsinin kataloqunun ön sözünün müəllifidir.

Sevda müəllimə əməyinin bəhrəsini görəndə, dərs dediyi şagirdlərin qəbul imtahanlarında yüksək nəticələr göstərdiklərini eşidəndə sanki ürəyi dağa dönür, özünü dünyanın ən xoşbəxt insanlarından biri hesab edir. Onunla söhbət zamanı dərs dediyi şagirdlərdən özü ilə bir məktəbdə çalışan tarix müəllimi Afaq Rəhimovanın, 1 saylı tam orta məktəbin tarix müəllimiGünay Sultanovanın, 3 saylı tam orta məktəbdə müəllim işləyən Səbinə İbrahimovanın, Qırlı kənd orta məktəbinin müəllimi Sevda İsgəndərovanın adlarını iftixarla çəkdi və onlarla fəxr etdiyini bildirdi.

Sevda Əliyeva təkcə dərs dediyi şagirdlərlə deyil, həm də öz övladları ilə də fəxr edir. Çünki onlar da orta məktəbdə təhsil alarkən yüksək biliyə yiyələnmiş, qəbul imtahanlarında özlərini doğrultmuşlar. Onun oğlu Murad Babakişizadə Qazax şəhərində diaqnostika mərkəzində həkim işləyir. Kiçik oğlu Fuad isə Milli Aviasiya Akademiyasının tələbəsidir.

Ömrünü gənc nəslin təlim-tərbiyəsi yolunda şam kimi əridən, öz şərəfli peşəsilə fəxr edən Sevda Əliyevanın əməyi işlədiyi dövrdə həmişə dövlətimiz tərəfindən də yüksək qiymətləndirilmişdir. O, 2012-ci ildə ölkə başçısının sərəncamı ilə "Tərəqqimedalı"na layiq görülmüşdü. Bugünlərdə isə rayonumuza daha bir şad xəbər gəlmiş, möhtərəm prezidentimiz cənab İlham Əliyevin 4 oktyabr 2016-ci il tarixli sərəncamı ilə Sevda Fərhad qızı Əliyevaya "Əməkdar müəllim" fəxri adı verilmişdir.

Hörmətli Sevda müəllimə, mən sizi qəzetimizin bütün oxucuları adından, rayonumuzun ziyalıları adından ürəkdən təbrik edir, sizə gələcək fəaliyyətinizdə daha böyük uğurlar arzulayıram.

İbrahim Əliyev.

Etibarsız sayılır

"N" saylı hərbi hissənin hərbi qulluqçusu, baş gizir Bilalov Arzu Sədyar oğluna məxsus 017104 nömrəli veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Eynallı kənd sakini, mərhum İbrahimov Məmməd Məcid oğlunun adına olan JN-194 nömrəli Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Qıraq Kəsəmən kənd sakini, mərhum Binnətov Vahid Alıhüseyn oğlunun adına olan 102 nömrəli fərdi yaşayış evinin qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Sadıxlı kənd sakini Allahverdiyev Rauf Ziyad oğlunun adına olan JN-589 nömrəli həyətyanı torpaq sahəsinin mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

* * *

S.Vurğun qəsəbə sakini İbrahimov Vilayət Hümbətəli oğlunun adına olan JN-194A nömrəli Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

* * *

Tatlı kənd sakini Muradova Nərgiz Şəmşəd qızının adına verilmiş 61 nömrəli qeydiyyat vəsiqəsi və JN-267 nömrəli Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

* * *

Qarahəsənli kənd sakini mərhum Həsənov Əli Həsən oğlunun adına verilmiş 302 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Ağstafa şəhər sakini mərhum Musayev Məmməd Oruc oğlunun adına verilmiş 802 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Tatlı kənd sakini mərhum Tağıyeva Gülşən İmamverdi qızının adına verilmiş 193 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Ağstafa rayonu Saloğlu qəsəbə sakini İsayev Tapdıq Sarı oğlunun adına verilmiş 173 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Xətai kənd sakini Vəliyev Nəbi Cəlil oğlunun adına olan torpağın mülkiyyətə verilməsinə dair JN 899 F nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

BAŞ REDAKTOR:

İBRAHİM ƏLİYEV

Həmtəsisçi:
"Ağstafa" qəzetinin jurnalist kollektivi

Şəadətnamə № 308

Redaksiya heyəti

L.Eyyubova, Ə.Babayev, K.Abbasov, V.Əkbərov, K.Rzayev, İ.Mustafayev, N.Mehdixanlı, F.Vəliyev, A.Tağızadə

Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.

Ünvan:
Ağstafa şəhəri,
Heydər Əliyev pros. - 10
Tel: 5-14-56
mob: (050) 344-26-20
Tiraj: 1000